İPƏK YOLU, No.3, 2022, səh.5-14

# İNNOVASİYA FƏALİYYƏTİNDƏ DÖVLƏT-XÜSUSİ BİZNES TƏRƏFDAŞLIĞNIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Alıcan Abbasov[1], Gülnarə Əhmədova[2]**

[1]Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
[2]Milli Aviasiya Akademiyası, Bakı, Azərbaycan
e-mail: alıcan.abbasov@gmail.com

**Xülasə.** Məqalədə innovasiya sferasında dövlət-xüsusi biznes tərəfdaşlığının nəzəri-metodoloji əsasları öyrənilmiş, iqtisadiyyatın innovativ inkişafı üçün dövlət-xüsusi biznes tərəfdaşlığının əhəmiyyəti və onun səciyyəvi əlamətləri açıqlanmışdır. Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi və innovativ inkişaf yoluna keçməsi məqsədilə dövlət-xüsusi biznes tərəfdaşlığının inkişaf strategiyasının formalaşdırılmasının əsas istiqamətləri əsaslandırılmış və onların reallaşdırılmasının təşkilati-iqtisadi və maliyyə mexanizmləri işlənib hazırlanmışdır.

**Açar sözlər:** dövlət-xüsusi biznes tərəfdaşlığı, innovasiya sferası, innovasiya fəaliyyəti, strategiya, innovasiyalı inkişaf, rəqabətqabilliyyəti.

## PUBLIC-PRIVATE BUSINESS PARTNERSHIP IN INNOVATION ACTIVITY DEVELOPMENT DIRECTIONS

**Alican Abbasov, Gulnara Ahmedova**
*Azerbaijan State Economic University, Baku, Azerbaijan*
*National Aviation Academy, Baku, Azerbaijan*

**Abstract.** In the paper the theoretical and methodological bases of the public-private business partnership in the sphere of innovation were studied, the importance of public-private business partnership for the innovative development of the economy and its characteristic features were explained. In order to modernize the economy of Azerbaijan and move to the path of innovative development, the main directions of the formation of the development strategy of the public-private business partnership have been substantiated and the organizational, economic and financial mechanisms of their realization have been developed.
**Keywords:** public-private business partnership, sphere of innovation, innovation activity, strategy, innovative development, competitiveness.

## НАПРАВЛЕНИЕ РАЗВИТИЯ ГОСУДАРСТВЕННО-ЧАСТНОГО ПАРТНЕРСТВА В ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ

**Алыджан Аббасов, Гюльнара Ахмедова**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*
*Национальная Академия Авиации, Баку, Азербайджан*

**Резюме.** В статье изучены теоретико-методологические основы государственно-частного партнерства в инновационной сфере. Рассмотрены значение государственно-частного партнерства для инновационного развития экономики страны и его специфические признаки. В целях модернизации экономики Азербайджана и перехода на инновационной путь развития разработаны основные направления формирования стратегии государственно-частного партнерства, а также механизмы государственно-частного партнерства, включая финансовый и организационный.
**Ключевые слова:** государственно-частное партнерство, инновационная сфера, инновационная деятельность, стратегия, инновационное развитие, конкурентоспособность.

## 1. Giriş

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının dayanıqlı və davamlı inkişafı innnovasiya siyasətinin reallaşdırılmasından və yüksək texnoloji və elmtutumlu istehsalın təşkilindən bilavasitə asılıdır. Bu isə öz növbəsindən ölkə iqtisadiyyatına investisiyanın cəlb edilməsini, elmi sferada idarəetmənin və beynəlxalq kooperasiyanın innovativ metodlarının tətbiqini tələb edir.

Beynəlxalq təcrübə göstərir ki, investisiya fəaliyyətinin iqtisadi stimullaşdırılmasının effektiv üsullarından biri elm və innovasiya fəaliyyətində dövlət-xüsusi biznes tərəfdaşlığıdır, hansıki  elmi tədqiqatların yerinə yetirilməsi, elmi-texniki işləmələrin və texnologoyaların kommersiyalaşdırırlmasından elmtutumlu yüksək texnoloji məhsul istehsalınadək bütün innovasiya tsikli üzrə dövlət və xüsusi biznesin qarşılıqlı fəaliyyətini təmin edir. Dövlət-xüsusi biznes tərəfdaşlığının inkişafı üzrə dünyada lider Böyük Britaniya, Avstraliya və Skandinaviya ölkələri sayılırlar. Dövlət-xüsusi biznes tərəfdaşlığı layihələrində elm və texnologiyaya dövlət büdcəsindən daha çox vəsait ayrılır [6, s.78].

İnnovasiya fəaliyyətində dövlət-xüsusi biznes tərəfdaşlığı (DXT) mexanizmlərinin tətbiqi üzrə müsbət xarici təcrübə, Azərbaycan iqtisadiyyatının innovasiyalı inkişafına maliyyə vasaitlərinin kifayət qədər olmaması və s. amillər innovasiya fəaliyyətinə əlavə maliyyə mənbəyi kimi dövlət-xüsusi biznes tərəfdaşlığı mexanizmlərinin tətbiqi məsələlərini aktuallaşdırır.

## 2. Dövlət-xüsusi biznes tərəfdaşlığının mahiyyəti və xüsusiyyətləri

Ümumi mənada dövlət-xüsusi biznes tərəfdaşlığı maliyyə, təşkilatı və digər resursların cəlb edilməsi və müəyyən məqsədlərə nail olmaq üçün dövlət orqanları tərəfindən xüsusi sektora səylərin artırılması mexanizmlərini ifadə edir. İqtisadi kateqoriya olan Dövlət-xüsusi biznes tərəfdaşlığına, onun müxtəlif sxem və mexanizmlərinə yüksək maraq ondan ibarətdir ki, müxtəlif sahələrdə dövlət hakimiyyəti orqanları və xüsusi biznes strukturları arasında əməkdaşlıq bir sıra üstünlüklər və cəlbedici imkanlar təklif edə bilər. Məsələn, Hindistanda avtomagistral yolların inşasına və yenidənqurulmasına qoyulan investisiyanın 75% dövlət-xüsusi biznes tərəfdaşlığından daxil olur. Kanadada bütün yeni infrastrukturların 20% xüsusi sektor tərəfindən işlənmiş, qurulmuş və idarə olunur.

Qərb dövlətlərinin qabaqcıl təcrübəsi əsasında dövlət-xüsusi biznes tərəfdaşlığının aşağıdakı xarakterik xüsusiyyətlərini (üstünlüklərini) müəyyənlşdirmək olar [3, 5, 8]:

1. Dövlət-xüsusi biznes tərəfdaşlığı infrastruktur layihələrin maliyyə və digər resurs təminatını əhəmiyyətli dərərcədə artırmağa imkan verir ki, bu da qısa müddətdə iri miqyaslı innovativ və effektiv layihələrin reallaşdırılmasına zəmin yaradır  .

Dövlət-xüsusi biznes tərəfdaşlığı sferasında effektiv idarəetmə məsələləri üzrə Avropa İqtisadi Komissiyasının praktiki rəhbərliyinə uyğun DXT dövlətə imkan verir ki, alternativ xüsusi kapital mənbələrinə çıxsın, vacib və təcili layihələri reallaşdırsın, hansıki,başqa halda

qeyri-mümkündür. İnfrastrukturlara investisiya qoymaq çox vacibdir, çünki iqtisadi artım mövcud infrastrukturların vəziyyətindən, həmçinin yeni infrastruktur seqmentlərinin və obyektlərin yaradılmasından bilavasitə asılıdır.

2. İnfrastruktur və başqa layihələrin reallaşdırılmasının intensifikasiyası. Layihələrin reallaşdırılmasına dövlət tərəfindən maraqlı xüsusi biznes tərəfdaşlarının maliyyə, təşkilatı və intellektual resursları ilə cəlb edilməsi infrastruktur və başqa layihələrin reallaşdırılmasını intensivləşdirməyə, istehlakçıların infrastruktur təminatını qısa müddətdə təmin etməyə imkan verir.

3. Dövlət-xüsusi biznes tərəfdaşlığı innovasiya layihələrinə məsrəflərin azaldılmasının effektiv üsuludur və iqtisadiyyatın real sektorunda qiymət və keyfiyyətin ən effektiv və optimal nisbətini təmin edir.DXT mexanizmləri infrastruktur layihələrinin yaradılması və reallaşdırılması üçün böyük potensiala malikdir, hansıki dövlət resursları və imkanlarından daha effektiv istifadəyə, eləcə də risklərin tərəflər (iştirakçılar) arasında bölüşdürülməsi, aktivlərdən və idarəetmə metodlarından daha səmərəli istifadə hesabına qiymət və keyfiyyətin optimal nisbətinin təmin edilməsinə imkan verir. Bu zaman DXT çərçivəsində reallaşdırılan infrastruktur layihələr özlüyündə infrastruktur layihənin bütün həyat tsikli ərzində məsrəfinin minimallaşdırılmasının güclü stimulu kimi çıxış edir, hansıki köhnəlmiş dövlət tədarükü model çərçivəsində nail olmaq çox çətindir.

4. İnfrastruktur layihələrin reallaşdırılmasında fasiləsizliyin təmin edilməsi. Dövlət-xüsusi biznes tərəfdaşlığı sxeminin cəlbediciliyi onunla şərtlənir ki, hətta layihənin reallaşdırılmasına dövlətin maliyyə vəsaitinin məhdudluğu, yaxud layihənin reallaşdırılmasının növbəti mərhələsinə vasaitin tapılması ilə baglı dövlətin yaranmış çətinlikləri şəraitində layihənin reallaşdırılmasındakı fasiləsizlik xüsusi biznesin maliyyələşdirilməsi hesabına təmin ediləcəkdir.

5. Dövlət-xüsusi biznes tərəfdaşlığı – risklərin optimal bölüşdürülməsinin və risklərin idarə olunmasının yüksək effektivliyinin təmin edilməsinin ən mühüm üsuludur. Risklərin iştirakçılar arasında optimal bölünməsi – DXT – nin istənilən sxeminin əsas prinsipidir. Risklərin optimal bölünməsi o deməkdir ki, dövlət sektorunun subyektləri tərəfindən daha effektiv idarə olunan müəyyən risklər dövlət tərəfdaşının hesabına, xüsusi biznes subyektləri tərəfindən effektiv idarə olunan başqa risklər isə xüsusi tərəfdaşın hesabına aid edilir.

6. Dövlət resurslarından istifadənin effektivliyinin yüksəldilməsi və onların innovativ idarə olunması. Dövlət sektorunun subyektlərinin fəaliyyətinin bir çox növləri xüsusi sektorun idarəetmə texnologiyalarından istifadə edərək uğurla həyata keçirilə bilər. Dövlət-xüsusi biznes tərəfdaşlığı sferasında effektiv idarəetmə mərhələləri üzrə Avropa iqtisadi Komissiyasının praktiki rəhbərliyinə uyğun dövlət və xüsusi biznes subyektlərinin motivasiyası və yeniliklərinin qovuşması, eləcə də müsabiqə yolu ilə müqavilələrin bağlanması DXT çərçivəsində infrastruktur layihələrin həyata keçirilməsinə yaradıcı yanaşmalardan istifadə üçün imkanları genişləndirir.

7. Dövlətin maliyyə yükünü daha çox azaltmaq üçün əlavə gəlirin yaradılması üzrə xüsusi tərəfdaşın real imkanlarının olması. Xüsusi tərəfdaş dövlətin maliyyə yükünün azaltmaq üçün reallaşdırılan layıhə çərçivəsində sərbəst əlavə dəyər yarada bilər (ehtiyat istehsal güclərindən istifadə, yaxud artıq aktivlərin ləğv edilməsi vasitəsilə).

8. Təşkilati və müvəqqəti yükün əhəmiyyətli hissəsinin dövlətdən çıxarılması. Bəzi dövlət xidmətlərinin göstərilməsinə görə məsuliyyətin xüsusi tərəfdaşa verilməsi dövlət hakimiyyəti orqanına imkan verir ki, əsas diqqəti planlaşdırma və nəzarətin həyata keçirilməsinə yönəltsin və dövlət idarəçiliyinin effektivliyini artırsın.

9. Təqdim olunan infrastruktur və başqa xidmətlərin keyfiyyətinin yüksəldilməsi. DXT çərçivəsində layihələrin reallaşdırılmasının xarici təcrübəsi təsdiq edir ki, tərəfdaşlıq şəraitində göstərilən xidmətlərin keyfiyyəti köhnəlmiş dövlət tədarükü modelinin reallaşdırılmasındakından yüksəkdir.

## 3. Milli iqtisadiyyatın innovasiyalı inkişafında dövlət-xüsusi biznes tərəfdaşlığı mexanizmlərinin əhəmiyyəti

Azərbaycanda dövlət-xüsusi biznes tərəfdaşlığı formalarının inkişafının stimullaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Beləki, xüsusi iqtisadi zonalar, texnoparklar, aqroparklar , texnologiyanın transfer mərkəzi və vençur fondu yaradılmış, dövlət və xüsusi biznes münasibətlərinin təkmilləşdirilməsinə dövlət dəstəyi gücləndirilmişdir. Bununla belə Azərbaycan Respublikası innovasiya fəaliyyətində dövlət-xüsusi biznes tərəfdaşlığı layihələrinin reallaşdırırlmasının qanunvericilik, təçkilati-iqtisadi və maliyyə mexanizmlərinin inkişafında çox geri qalır. Dövlət-xüsusi biznes tərəfdaşlığının inkişafını ləngidən əsas səbəblər "Dövlət-xüsusi biznes tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası qanunun və innovasiya sferasında DXT modellərindən mərhələlər üzrə istifadə Konsepsiyasının olmaması, eləcə də DXT mexanizmlərinin tətbiqinin təşkilati məsələlərinin həll edilməməsi ilə əlaqədardır. Sənaye müəssisələrinin innovasiya fəaliyyətinə müsbət təsir edən mütərəqqi mexanizmlər yoxdur ki, bu da innovasiya sferasında dövlət-xüsusi biznes tərəfdaşlığı mexanizmlərindən effektiv istifadəyə imkan vermir.

İnvestisiyanın ödənilməsi müddətini nəzərə almaqla dövlət hakimiyyəti orqanları tərəfindən investisiya müqavilələrinin bağlanması haqqında metodika mövcud deyil. Əgər nəzərə alsaq ki, həmin müqavilə əsasında dövlət mülkiyyəti biznes strukturunun tabeçiliyinə və istifadəsinə 15-20 il müddətinə keçir,onda dövlət tərəfindən həmin müqaviləni imzalayan şəxsin üzərinə çox böyük məsuliyyət düşür [2].

Bütün bunlar innovasiya fəaliyyətində dövlət-xüsusi biznes tərəfdaşlığının nəzəri və metodoloji əsaslarının və innovasiya sferasında dövlət-xüsusi biznes tərəfdaşlığının inkişaf strategiyasının formalaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsini zəruri edir.

Dövlət-xüsusi biznes tərəfdaşlığı innovasiya layihələrinin maliyyələşdirilməsinin alternativ mexanizmi olmaqla dövlətin innovasiya siyasətinin mühüm aləti kimi çıxış edir. Bu

halda söhbət elmi-tədqiqat işlərinin nəticələrinin birgə kommersiyalaşmasından, elmi strukturların cəlb edilməsindən, iqtisadiyyatın innovasiyalı inkişaf proiritetlərinin formalaşdırılmasından gedir. İqtisadi ədəbiyyatda milli innovasiya sisteminin bütün əsas elementlərinin qarşılıqlı əlaqəsini formalaşdıran dövlət və biznes strukturlarının qarşılıqlı fəaliyyət forması kimi dövlət-xüsusi biznes tərəfdaşlığı anlayışı barədə əsaslandırılmış elmi-nəzəri yanaşma mövcud deyil. Bundan əlavə, Azərbaycan təcrübəsində strateji perspektivdə dövlət-xüsusi biznes tərəfdaşlığının mütərəqqi formalarının yaradılması və onların inkişafına dövlət dəstəyi məsələləri lazımı səviyyədə öz əksini tapmamışdır.

Dövlət-xüsusi biznes tərəfdaşlığı anlayışı XX əsrin 80-ci illərində dövlət və özəl sektor arasında baş vermiş xüsusi münasibətləri xarakterizə etmək üçün istifadə olunmuşdur. Buna bənzər münasibətlər istehsal və sosial infrastruktur sferasında yaranmış və inkişaf etmişdir. Hazırkı vaxtla dövlət-xüsusi biznes tərəfdaşlığı qanunvericilik aktları və xüsusi sazişlər, eləcə də qarşılıqlı maraqların balansı əsasında iri miqyaslı maliyyə layihələrinin reallaşdırılmasında dövlət, bisnes, bank, beynəlxalq maliyyə təşkilatları və digər institutların qarşılıqlı faydalı alyansı kimi çıxış edir [1].

Dünya iqtisadiyyatının qloballaşması şəraitində inkişaf etmiş ölkələr kənardan maliyyə vəsaitlərinin cəlbedilməsi modelindən istifadə edirlər. Lakin lazımi layihəyə təyinatı üzrə investisiyanın cəlb edilməsi rəqabətin güclənməsi səbəbindən olduqca çətindir və bu zaman dövlət və xüsusi biznes tərəfdaşlığı əvəzedilməz amili sayılır.

Dövlət-xüsusi biznes tərəfdaşlığı mexanizmlərindən ilk dəfə İngiltərədə istifadə olunmuş,yəni layihələrin reallaşdırılması proseslərinin yeni təşkilatı – Həyat Tsiklinin Kontrakt (HTK) tətbiq edilmişdir. Tərəfdaşların bu qarşılıqlı fəaliyyət forması dövlət və biznes tərəfdaşlıq münasibətlərinə tam cavab verir, ancaq fərq ondan ibarətdir ki, onların birgə obyektinə görə xüsusi biznesin müəyyən öhdəliyi olur və məsuliyyət daşıyır, həm də məsuliyyət obyektin bütün istismar müddətinə aiddir [7].

Tərəfdaşlıq çərçivəsində xüsusi biznes zəruri məsələlərin həllinə görə məsuliyyət daşımağa tam qadirdir, lakin maliyyə funksiyasını üzərinə götürməyə hazır deyil. Həyatı Tsikl Kontraktlarında tərəfdaşlıq şərtlərinə riayət etmək üçün DXT mexanizminin standartına məxsus bütün funksiyaları, o cümlədən maliyyələşmə funksiyasını öz üzərinə götürməsi vacibdir. Bu ilk növbədə onunla əlaqədardır ki, tərəfdaşlıq şərtlərinə görə ödəniş layihənin həyat tsiklinin hesdablanmasına əsaslanır və onun iş qabiliyyəti artdıqca ödəniş aparılır.

Xüsusi tərəfdaş maksimum məsuliyyəti öz üzərinə götürür və risklə birlikdə layihənin bütün mərhələlərini maliyyələşdirir. Layihə reallaşanda pul vəsaiti dərhal köçürülmür, layihənin həyat tsikli azaldıqca müəyyən payla ödənilir. Dövlət riskləri minimallaşdırıraraq maksimum effekt əldə edir.

Biznes tərəfindən tərəfdaşlıq – yüksək risk və böyük imkan deməkdir. DXT iştirakçılarından heç biri layihənin uğurla reallaşmasına zəmanət verə bilməz. Belə başlanğıc yüksək risklidir və vəziyyətdən yeganə çıxış yolu layihədə xüsusi biznesin iştirakını stimullaşdıran tədbirlərin həyata keçirilməsidir.

Həyat Tsikl Kontaktı mexanizmlərinin beynəlxalq təcrübədə tətbiqi böyük imkanlar yaradır, ancaq müxtəlif formada tətbiq edilir. Həyati əhəmiyyətli layihələrin inşaasında tərəfdaşlıq mexanizmlərinin tətbiqi ölkə iqtisadiyyatının dayanıqlı inkişafı üçün zərərsiz ötüşə bilər. Əsas məsələ dövlət üçün gəlirli layihəyə pul vəsaiti yatırmağa xüsusi biznes strukturlarını maraqlandırmaq qalır. HTK konteksti dedikdə obyektin bütün istismar müddəti, yəni onun həyat tsikli başa düşülür. Tərafdaşlıqda iştirak edən şirkət obyektin bütün istismar müddəti ərzində tam məsuliyyət daşıyır.

Dövlət-xüsusi biznes tərəfdaşlığı anlayışını iki mənada açıqlamaq olar. Nəzəri mənada – müqavilə formasında dövlət və biznes strukturlarının qarşılıqlı münasibətidir, hansıki milli, beynəlxalq, regional və bələdiyyə sosial-iqtisadi inkişaf və planlaşdırma qismində geniş istifadə olunur. Praktiki nöqteyi- nəzərincə, dövlət-xüsusi biznes tərəfdaşlığı müxtəlif dövlət və biznes strukturları tərəfindən dövlət və bələdiyyə mülkiyyətində olan obyektlərdə birgə reallaşdırılan konkret investisiya layihələridir.

Dövlət-xüsusi biznes tərəfdaşlığının səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

- xidmətlərin uzunmüddətli təminatı və təqdimatı;
- layihənin reallaşdırılmasında baş vermiş risklərin dövlətdən xüsusi biznesə verilməsi;
- dövlət və bələdiyyə orqanları ilə hüquqi, yaxud fiziki şəxslərin bağladıqları müqavilə formalarının geniş spektri.

## 4. İnnovasiya aktivliyinin və innovasiyanın maliyyələşdirmə mexanizimlərinin təhlili

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən sənaye müəssisələrinin 25,6% - i innovasiyalı aktiv müəssisələrdir. Avropa İttifaqı ölkələri üzrə innovasiya aktivlik göstəricisi 22-72% civarında tərəddüd edir. İnnovasiya fəaliyyətinin effektivliyi elmi tədqiqatların və işləmələrin maliyyələşdirilməsini müəyyən edir. Elmi tədqiqatlara və işləmələrə sərf edilən vəsaitin ümumi daxili məhsula (ÜDM) olan nisbəti elmtutumlu göstərici adlanır. Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün ÜDM – un elmtutumluğu 2% dən çox olmalıdır. Azərbaycanda ÜDM – un elmtutumluğu 0,85% təşkil edir ki, bu inkişaf etmiş xarici ölkələrin müvafiq göstəricisindən çox aşağıdır. Belə ki, elmtutumlu göstərici Avropa İttifaqı ölkələrindən İsveçdə- 3,62%, Fillandiyada- 3,96%, Daniyada- 3,02%, Avstriyada- 2,75%, Almaniyada- 2,82% və Fransada – 2,21%, Müstəqil Dövlətlər Birliyi ölkələrindən Rusiyada – 1,25%, Ukraynada – 0,91% təşkil edir [5, s.139].

Maraqlı cəhət odur ki, son illər kommersiya təşkilatları tərəfindən elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinə investisiya qoyuluşu əhəmiyyətli dərəcədə artmış və maliyyələşmənin strukturunda birinci yerə çıxmışdır. 2021-ci ildə elmi-tədqiqat və konstruktor işlərinin təşkilinə (ETKİT) qoyulan vəsaitin ÜDM da xüsusi çəkisi dövlət sektoru üzrə 0,25% və kommersiya təşkilatları üzrə 0,62% təşkil etmişdir. İnkişaf etmiş xarici ölkələrlə müqayisədə Azərbaycanda ETKİT – nə sərf edilən dövlət vəsaitinin payı cüzidir.

Belə ki, Daniyada bu göstərici o,99%, Almaniyada 0,95%, Fillandiyada – 1,12%, İslandiyada-1,14% təşkil edir. Xarici ölkələrdə də ETKİT – nə kommersiya təşkilatlarının məsrəflərinin payı dövlət məsrəfləri ilə müqayisədə yüksəkdir: Böyük Britaniyada – 1,16%, Danimarkada – 2,02%, Almaniyada – 1,92% təşkil edir [5, s.152].

Elmi tədqiqatların və işləmələrin nəticəsi innovasiya adlanır və texnoloji, təşkilati və marketinq innovasiyalara bölünür. Texnoloji innovasiyanın iki növü: məhsuldar və proses innovasiyalar fərqlənir. Məhsuldar innovasiya - yeni, yaxud xassələrinin bir hissəsinin, yaxud istifadə üsullarının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış məhsul, yaxud xidmətin tətbiqidir. Proses informasiya-yeni, yaxud əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış istehsal üsulunun (xidmət göstərilməsinin) tətbiqidir.

Təşkilatı innovasiya-müəssisənin işgüzar təcrübəsində, iş yerlərinin təşkilində yaxud xarici iqtisadi əlaqələrdə yeni təşkilati üsulların tətbiqidir.

Marketinq innovasiyası – dizaynda, yaxud məhsulun bükülməsində, bazara irəliləmədə, yaxud yeni qiymət strategiyasının istifadəsində əhəmiyyətli dəyişikliklər daxil edilməklə, yeni marketinq üsullarının tətbiqidir. Qloballaşma nəticəsində rəqabətin gücləndiyi şəraitdə marketinq innovasiyası müəssisənin rəqabətqabiliyyətinin mühüm amili sayılır. Azərbaycanın sənaye müəssisələrinin innovasiyalı inkişafını ləngidən səbəb koorporativ marketinq strategiyasının təkmil olmamasıdır, yəni müəssisələrin yalnız 16% əsas təchizat strategiyasını xarici bazarda seçir. Avropa İttifaqı ölkələrində isə müəssisələrin 50% xarici bazarların mənimsənilməsini əsas məqsəd müəyyənləşdirir [4, s.18].

İqtisadiyyatın innovasiyalı inkişafının maliyyə təminatı innovasiya fəaliyyətinin effektivliyi üçün yeganə meyar deyil, maliyyə vəsaitlərindən daha səmərəli istifadənin nəticəsi: ixtiralara potent, sənaye nümunəsi və əmtəə nişanı, ölkədə qabaqcıl istehsal texnologiyalarının yaradılması daha vacibdir.

Aparılmış tədqiqatlar göstərir ki, innovasiya fəaliyyətinin inkişafını ləngidən iqtisadi amillər aşağıdakılardır:

- xüsusi pul vəsaitlərinin çatışmaması;
- texniki və texnoloji yeniliklərin dəyərinin baha olması;
- innovasiya fəaliyyətinin stimullaşdırılmasına dövlət dəstəyinin zəif olması.

## 5. İnnovasiya sferasında dövlət-xüsusi biznes tərəfdaşlığı münasibətlərinin formalaşdırılması modeli

Dövlətin iqtisadi siyasəti və dövlət-xüsusi biznes tərəfdaşlıq təcrübəsi qarışıq iqtisadiyyat nəzəriyyəsinin əsas müddəaları kontekstində formalaşır. Tərəfdaşlıq münasibətlərini quraraq və inkişaf etdirərək dövlət təsərrüfatçılığın effektiv üsullarının arsenalını artırır, ona məxsus mülkiyyətin idarə edilməsi funksiyalarını xüsusi biznes strukturlarına verir, hansıki, öz növbəsində dövlət aktivlərindən və zəmanətindən istifadə edərək istehsala təçkilati təcrübə, bilik, nou-xau gətirir, investisiya qoyur, sahibkarlıq fəaliyyətində riskləri minimuma endirir. Tərəfdaşlıq parametrləri iqtisadiyyatın harmonik

inkişafına səbəb olan və cəmiyyətin müxtəlif təbəqələrinin maraqlarını təmin edən mexanizmləri ifadə edir. Müasir dövrdə tərəfdaşlıq münasibətləri sferası sahibkarlıq fəaliyyətinin inkişafı, innovasiya fəaliyyətinin aktivləşdirilməsi, əmtəə istehsalçılarının klasterlərinin təşkili məsələlərinin həllinə yönəlmişdır. Xüsusi bizneslə tərəfdaşlıq münasibətlərinin inkişafı iqtisadiyyatın dövlət sektoruna əlavə resurs, ilk növbədə investisiya cəlb etməyə imkan verir, büdcə problemindəki gərginliyi azaldır, risklərin əsas hissəsini sahibkarlıq strukturuna həvalə edir və eyni zamanda istifadə olunan obyekt dövlət mülkiyyətində qalır.

İqtisadiyyatın qloballaşdırılması və istehsalın milliləşdirilməsi şəraitində dövlət-xüsusi biznes tərəfdaşlığı xarici kapitalın iştirakı ilə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasına, lazımi təcrübə toplamağa və qabaqcıl texnologiya almağa imkan verir. Dövlətin transmilli şirkətlərlə qarşılıqlı fəaliyyəti qlobal kontekstdə milli istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsinin mühüm amili sayılır. Dövlət-xüsusi biznes tərəfdaşlığı kiçik və orta sahibkarlıq subyeklərinin dünya kapital bazarına çıxmasını asanlaşdırır, xarici investisiyanın iqtisadiyyatın real sektoruna cəlb edilməsini stimullaşdırır. Tərəfdaşlıq münasibətlərinin təşəkkülü şəraitində mülkiyyət münasibətlərində əhəmiyyətli dəyişikliklər baş verir, maliyyələşmənin yeni modelləri yaranır, idarəetmənin daha effektiv üsulları tətbiq edilir.

Beləliklə, dövlət və xüsusi biznes strukturlarının qarşılıqlı fəaliyyətini uzunmüddətli tərəfdaşlıq kimi səciyyələndirmək olar, hansıki iqtisadi təbiətinə görə dövlət və özəl sektor arasında qarşılıqlı fəaliyyətin ənənəvi təsərrüfatçılıq mexanizmlərinin inkişafı sayılır.

İnnovasiya sferasında dövlət-xüsusi biznes tərəfdaşlığı – layihə və proqramların reallaşdırılması vasitəsilə iqtisadiyyatın innovasiyalı inkişaf məqsədlərinə nail olmağa yönəldilən dövlət və xüsusi biznesin qarşılıqlı fəaliyyətinin və təşkilati-hüquqi münasibətlərinin məcmusudur.

İnnovasiya layihəsi – son innovasiya fəaliyyətinin texniki-iqtisadi, hüquqi və təşkilati əsaslandırılmasını özündə əks etdirən layihədir. İnnovasiya proqramını – resurs, icraçılar və həyata keçirilmə müddəti üzrə planlaşdırılmış və prinsipcə yeni məhsul (texnologiya) növlərinin mənimsənilməsi və yayılması ilə bağlı məsələlərin effektiv həllini təmin edən kompleks innovasiyalı layihə və tədbirlərdir.

İnnovasiya fəaliyyətinin spesifikliyi innovasiya sferasında dövlət-xüsusi biznes tərəfdaşlığının tipi və modellərində təcəssüm edir. İnnovasiya prosesinin xüsusiyyətlərinə innovasiya fəaliyyətində yüksək risk və böyük məbləğdə investisiya qoyuluşundan, eləcə də innovasiya proseslərinin müxtəlif mərhələlərinin (təhsil, ETKİT, investisiya fəaliyyəti, innovasiyaların transferi, innovasiya məhsulunun istehsalı, təchizatı və xidməti) qarşılıqlı fəaliyyətindən ibarətdir [10].

İnnovasiya sfgerasında dövlət-xüsusi biznes tərəfdaşlığı modeli-innovasiya sferasında konkret problemlərin həlli üçün xüsusi biznes tərəfindən DXT – nin müvafiq iştirakçılarının

seçilməsinin qanuni və şəffaf prosedurları nəticəsində yaranmış konkret layihədir. Hər bir tipin çərçivəsində bir neçə DXT modeli ayırmq olar: məsələn, elmi tədqiqatlar və işləmələrdə əməkdaşlıq; texnologiyaların transferində əməkdaşlıq; innovasiya fəaliyyətində əməkdaşlıq; innovasiya məhsullarının istehsalında əməkdaşlıq və s. modellər.

## 6. Dövlət-xüsusi biznes tərəfdaşlığı layihələrində dövlət dəstəyinin formaları və alətləri

Dövlət-xüsusi biznes tərəfdaşlığı çərçivəsində innovasiya fəaliyyətini aktivləşdirmək üçün DXT layihələrinə dövlət dəstəyinin müxtəlif forma və alətlərindən istifadə edilir. İnnovasiya sferasında layihələrin effektivliyinin yüksəldilməsinə yönəldilən dövlət dəstəyinin aşağıdakı formalarını tətbiq etmək olar: maliyyə, vergi, təşkilati, dövlət zəmanəti.

DXT çərçivəsində innovasiya layihələrinin maliyyələşdirilməsi mexanizmlərinin yaradılması Azərbaycan iqtisadiyyatı üçün xüsusi aktuallıq kəsb edir, çünki innovasiyalı iqtisadi inkişaf dövlət və biznesin maraqlarının razılaşdırılmasına, investisiya resurslarının artırılmasına, büdcə məsrəflərinin azaldılmasında milli və regional məsələlərin həllinə, habelə əhalinin rifahının yaxşılaşdırlmasına səbəb olur.

İqtisadiyyatın innovasiyalı inkişafında DXT formalarının reallaşdırılmasının təşkilati-maliyyə alətləri dövlət-xüsusi biznes proqramı hesab edilir. İnnovasiya proqramlarının məqsədlərinə və spesifikasına, eləcə də idarəetmə orqanları və biznesin motivasiyasına ən çox layihə maliyyələşdirilməsi üsulu uyğun gəlir. Layihə maliyyələşdirilməsi üsulu strateji məqsədlərə nail olunmasına layihələrin uyğunluğunu təmin edir, resursların effektiv idarə olunmasına imkan verir. DXT -nın investisiya-innovasiya layihələrinin maliyyələşdirilməsi mənbələri xüsusi və biznes subyektlərinin cəlb edilmiş vəsaitləri, dövlət və yerli büdcə vəsaitləri, həmçinin müxtəlif beynəlxalq təşkilatların (məsələn, Avropa İttifaqının) donar yardımı ola bilər.

Dövlət-xüsusi biznes tərəfdaşlığının təşkilati mexanizminin işlənməsi tərəfdaşlıq münasibətlərinin formalaşması və inkişafı üzrə onun iştirakçılarının fəaliyyətinin ardıcıllığının müəyyənləşdirilməsini nəzərdə tutur. Bununla əlaqədar dövlət-xüsusi biznes tərəfdaşlığının formalaşması və inkişafının əsas mərhələləri müəyyənləşdirilir [9].

İnnovasiya əsasında Azərbaycan iqtisadiyyatını modernləşdirmək üçün “Dövlət-xüsusi biznes tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının qanunu qəbul edilməli, eləcə də innovasiya sferasında dövlət-xüsusi biznes tərəfdaşlığı mexanizmlərinin reallaşdırılmasının normativ və metodiki bazası işlənib hazırlanmalıdır.

**Nəticə.**

- Azərbaycanda innovasiya aktivliyinin və innovasiya fəaliyyətinin maliyyələşdirilməsi mexanizmlərinin təhlili göstərir ki, dövlət-xüsusi biznes tərəfdaşlığının inkişaf strategiyasının işlənib hazırlanması vacibdir;

- Milli iqtisadiyyatın dayanıqlı inkişafı üçün innovasiya sferasında dövlət-xüsusi biznes tərəfdaşlığının nəzəri-metodoloji əsaslarının işlənib hazırlanması və DXT-nın inkişaf strategiyasının formalaşdırılması istiqamətlərinin əsaslandırılması zəruridir;

- Məqalədə işlənib hazırlanmış və təqdim edilmiş dövlət-xüsusi biznes tərəfdaşlığı mexanizmləri innovasiya prosesinin bütün mərhələlərində tərəfdaşlıq münasibətlərinin formalaşması və inkişafına yönəldilmişdir.İqtisadiyyatın innovasiyalı inkişaf amilləri qismində sosial kapital, dövlət və biznes strukturlarının qarşılıqlı əməkdaşlığından alınan sinergetik effekt çıxış edir;

- Dövlət-xüsusi biznes tərəfdaşlığının inkişaf strategiyasının formalaşdırılması istiqamətlərinə və onların reallaşdırırlmasının təşkilatı-iqtisadi mexanizmlərinə dair məqalədə irəli sürülən təkliflərdən dövlət-xüsusi biznes tərəfdaşlığı mexanizmlərinin təşəkkülü ərəfəsində olan xarici dövlətlər də istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Алпатов А.А., Пушкин А.В., Джанаридзе Р.М. (2010), Государственно-частное партнерство: механизмы реализации, ООО Альпина Паблишерз, 248 с.
2. Варнавский В.Г. (2009), Государственно-частное партнерство, М. ИМЭМО РАН, 398 с.
3. Климовец О.В., Шеховцов Н.Н. (2013), Международный опыт развития государственно-частного партнерства. Экономические науки, 101, с.175-178.
4. Корчагина А.С. (2012), Развития государственно-частного партнерства в современной экономике России, автореферат канд. эком. наук, Саратов, 26 с.
5. Ларин С.Н. (2008), Государственно-частное партнерство: зарубежный опыт и российские реалии, М.: Издательство ЛКИ, 312 с.
6. Ленчук Е.В. (2008), Государственно-частное партнерство в инновационных системах. М.: Издательство ЛКИ, 305 с.
7. Сазанов В.Е. (2012), Премущества, недостатки и риски государственно-частного партнерства. Вестник РУДН, серия юридические науки, №3.
8. Шеховцов Н.Н., Климовец О.В. (2015), Основные направления развития государственно-частного партнерства при реализации стратегических интересов государства в условиях глобализирующейся экономики, Кретивная экономика, Т.9, №6, с. 711-720.
9. Яшева Г.А. (2010), Кластерная Концепция повышения конкуресносовности предприятий в контексте сетового сотрудничества и государственно-частного партнерства. Витебск: УО «ВГТУ», 373 с.
10. Яшева Г.А. (2012), Формирование стратегии государственно-частного партнерства в инновационном развитии республики Беларусь. Маркетинги менеджмент инновации, №3.